**UOT 94 (479.24)**

# 1990-CI İLLƏR TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ TARİXİNİN ARAŞDIRILMASI

**Aynur KƏRİMLİ***

Məqalə redaksiyaya daxil olmuşdur: 11 sentyabr 2025; çapa qəbul edilmişdir: 28 noyabr 2025; online-da çap edilmişdir: 17 dekabr 2025.
Received: 11th of September, 2025; accepted: 28th of November, 2025; published online: 17th of December, 2025.

**Açar sözlər:** *Bakı, Mudros barışığı, Birinci Dünya Müharibəsi, Osmanlı ordusu, Dağıstan*

## Giriş

Xalqımızın həyatında xüsusi tarixi əhəmiyyətə malik olan 1918-1920-ci illər dövründə Azərbaycan dövlət suverenliyini qazanaraq dünya birliyində layiqli yer tutmağa çalışmışdı. Bu mərhələ Azərbaycan xalqının həyatında mühüm dövr olmaqla yanaşı, həmçinin onun istiqlalının bünövrəsini qoymuşdur. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti çətin tarixi-siyasi şəraitdə öz müstəqilliyini elan etdi və bu gün onun varisi olan Azərbaycan Respublikası tərəfindən davam etdirilən demokratik dövlətçilik tarixinin də əsasını qoydu. Beləliklə, Azərbaycan tarixində müstəsna yeri olan Azərbaycan Xalq Cümhuriyyəti tarixinin müxtəlif istiqamətlərinin araşdırılması qarşıda duran mühüm məsələlərdəndir. Bu da öz növbəsində tədqiqat mövzusunun həm yerli, həm də xarici tarixşünaslıqda araşdırılmasını tələb edir. Azərbaycan-Türkiyə əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini nəzərə alsaq, Azərbaycan tarixşünaslığında kifayət qədər araşdırılan bu mövzunun Türkiyə tarixşünaslığında da araşdırılmasının getdikcə artdığını görmək olar. Tədqiqat mövzusunun əsasını XX əsrin 90-cı illərində türkiyəli tarixçilər tərəfindən yazılmış əsərlərdə olan məlumatların araşdırılması təşkil edir.

## 1. Nasır Yüceer və Nilgün Akgül Erdaşın tədqiqatlarında Azərbaycan Xalq Cümhuriyyəti

Türkiyə tarixşünaslığında XX əsrin 90-cı illərində Azərbaycan Xalq Cümhuriyyətinin tarixi haqqında yazan müəlliflərdən biri leytenant Nasır Yüceer olmuşdur. Onun yazdığı "Birinci Dünya Müharibəsində Osmanlı ordusunun Azərbaycan və Dağıstan əməliyyatları" adlı əsər əsasən arxiv sənədlərindən, Azərbaycan və Dağıstanın istiqlal mübarizəsində iştirak etmiş bölük komandirlərinin xatirələrindən istifadə edilməklə qələmə alınmışdır. Giriş, üç fəsil və nəticədən ibarət olan əsər 1996-cı ildə nəşr olunmuşdur. Bəzi xırda dəyişiklikləri özündə əks etdirən əsərin ikinci nəşri isə 2002-ci ildə Baş Qərargahın mətbəəsi tərəfindən çap olunmuşdur. Əsərin ön sözündə müəllif qeyd edir ki, Osmanlı imperiyası Birinci Dünya müharibəsində məğlub olan dövlətlər sırasında olsa da, bu dörd illik müharibədə əldə etdiyi qələbələr regionda siyasi və hərbi tarazlığın dəyişməsinə səbəb olmuş və bu qələbələrdən biri də məhz Qafqaz İslam Ordusunun həyata keçirdiyi Azərbaycan və Dağıstan əməliyyatları idi. Müəllif əsərin giriş hissəsində Birinci Dünya müharibəsinin sonlarına doğru Osmanlı İmperiyasının siyasi və hərbi vəziyyəti, Sinay-Fələstin-Suriya cəbhəsi, İraq və Qafqaz cəbhəsi, eləcə də Brest-Litovsk

---

* *doktorant, Bakı Dövlət Universiteti*
*e-mail:* aynurkarimli0@gmail.com
https://doi.org/10.30546/25194011.2025.14.5.3042

müqaviləsinin nəticələri və bu arada baş verən döyüşlər, Trabzon və Batum konfransları, Qafqazdakı türklərin vəziyyətindən bəhs etmişdir.

"Qafqaz İslam Ordusu" adlı birinci fəsildə N.Yüceer Azərbaycan və Dağıstanın o dövrdəki vəziyyəti, Birinci Dünya müharibəsinin sonlarına doğru bəzi dövlətlərin (Osmanlı, Almaniya, Sovet Rusiyası, İngiltərə) Azərbaycanla bağlı apardığı siyasət, Qafqaz İslam Ordusunun yaradılması və Gəncədəki vəziyyət haqqında məlumat vermişdir. Müəllif türk ordusunun Azərbaycana gəlməsinin səbəblərini bu cümlələrlə ifadə edir: *"Bakı başda olmaqla Azərbaycan Xalq Cümhuriyyətinin çox hissəsi işğal altında idi. Bolşeviklər Bakı və Gəncə arasındakı torpaqların yarısını işğal etmişdilər. Azərbaycan xalqı müdafiəsiz vəziyyətdə olduğu üçün bu işğalçıları dayandıra biləcək bir gücə ehtiyac vardı və belə bir yardımın gələcəyi sadəcə bir yer vardı. Osmanlı ordusu normal şərtlərdə deyil, azərbaycanlıları qətliamdan qurtarmaq üçün gəlmək məcburiyyətində qalmışdı"* [6, s.56-57]. N.Yüceer bununla türklərin Azərbaycana gəlişinin məqsədinin işğalçılıq deyil, məhz iki dövlət arasında bağlanmış müqaviləyə əsasən hərbi dəstək vermək və burada yaşayan türkləri qorumaq üçün olduğunu vurğulayır.

Göstərilən fəsildə müəllif Bakının həyati əhəmiyyətli şəhər olduğunu qeyd edərək yazır: *"Bakı Azərbaycanın ən böyük şəhəri və paytaxtı olduğu üçün burada baş verən hadisələr bütövlükdə Azərbaycanın hazırkı vəziyyətini təsvir etmək baxımından əhəmiyyətlidir. Bakının azad olunması da öz növbəsində Azərbaycanın azadlığı olacaq. Bakı neft əsaslı sənaye zonası olduğu üçün xaricdən çoxlu mühacir axını yaşayıb. Buna baxmayaraq, əhalinin böyük əksəriyyəti türklərdir"* [6, s.45]. N.Yüceer burada vurğulamaq istəyir ki, Bakının azad olunması Azərbaycanın müstəqilliyi üçün həyati əhəmiyyətlidir. Onun qənaətinə görə, məhz Bakının azad olunması Azərbaycanın müstəqilliyini əldə etməsinə bərabərdir.

Əsərin birinci fəslinin ikinci hissəsində N.Yüceer Qafqaz İslam Ordusunun Azərbaycanda (Göyçay, Salyan, Ağsu, Kürdəmir, Şamaxıda) həyata keçirdiyi əməliyyatları geniş şəkildə təsvir etmişdir. Əsərdə hərbi cəhətdən əhəmiyyətli məlumatların olması onu daha da dəyərli edir.

N.Yüceer əsərinin üçüncü fəslində isə Azərbaycanın azad olunmasından sonra Qafqaz İslam Ordusunun Dağıstanda həyata keçirdiyi əməliyyatlar haqqında dəyərli məlumatlar vermişdir. O qeyd edir ki: *"Bakının azad olunması ilə Qafqaz İslam Ordusu ona verilən tapşırığın sadəcə birinci hissəsini tamamlayaraq Azərbaycanı xilas etmişdi, lakin Qafqazda görməli olduğu işlər bitməmişdi. Digər qardaş ölkə olan Dağıstan da yardım gözləyirdi"* [6, s.139]. Müəllif bununla bir daha nəzərə çatdırmaq istəyir ki, Osmanlı dövlətinin Azərbaycan və Dağıstan əməliyyatlarının məqsədi məhz həmin dövlətlərin hökumətlərinin yardım çağırışına əsasən həyata keçirilmişdir.

Əsərin dəyərli mənbə olmasının əsas səbəblərindən biri müəllifin müxtəlif hadisələri, xüsusən də Bakının azad olunmasını günbəgün təsvir etməsidir. N.Yüceerin yazdıqlarına əsasən, Şərq cəbhəsi komandanlığı yeni əməliyyat üçün əsgər, silah və sursat tədarükü ilə məşğul olduğu üçün və Bakıdakı ermənilər, ruslar və ingilislər müdafiə əməliyyatlarına cəmləşdiyindən 1918-ci il avqustun 25-dək hər iki tərəf arasında əhəmiyyətli döyüşlər baş vermədi. Yalnız qarşılıqlı artilleriya və pulemyotlardan atəş açıldı və arabir hücumlar edildi [6, s.111]. İlk Bakı əməliyyatından 39 gün sonra, 1918-ci il sentyabrın 14-də ikinci Bakı hücumu həyata keçirildi. 36 saat davam edən ikinci Bakı əməliyyatında iştirak edən 5-ci Qafqaz diviziyasının və 15-ci piyada diviziyasının ümumi itkiləri təxminən 800–1000 əsgər idi [6, s.121]. Bakının türklər tərəfindən azad olunması ilə bir əsr müstəqillik əldə edə bilməyən Azərbaycan əsarətdən azad edildi, mayın 28-də qurulan Azərbaycan Respublikası isə sentyabrın 15-də əsl müstəqilliyinə qovuşdu. Üç ay yarım davam edən gərgin mübarizədən sonra türk qoşunları indi Bakıda idi və

şəhər indi öz əsl sahiblərinə qayıtmışdı. Müəllif burada vurğulamaq istədiyi odur ki, məhz Bakının azad olunması ilə Azərbaycan müstəqilliyinə tamamilə qovuşmuş oldu.

1990-cı illərdə Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ilə bağlı yazılmış digər tədqiqat işi Nilgün Akgül Erdaşın müəllifi olduğu "Milli Mücadilə Dönəmində Qafqaz Cümhuriyyətləri ilə Əlaqələr (1917–1921)" əsəridir. Giriş və üç fəsildən ibarət olan bu dəyərli əsərin birinci fəslində 1914–1918-ci illərdə türk-rus-erməni hadisələri, Qafqazdakı vəziyyət, Osmanlı dövləti üçün böyük əhəmiyyət daşıyan Brest-Litovsk sülh müqaviləsi, Batum konfransı, Bakının azad olunması, Qafqazda baş verən hadisələrə görə türk-sovet əlaqələrinin kəsilməsi kimi vacib məsələlər qələmə alınmışdır. N.Erdaş Batum müqaviləsi haqqında yazır: *"Batum danışıqları zamanı Osmanlı dövləti ilə Azərbaycan arasında yaxınlıq artdı, iki dövlət arasında gizli müqavilələr imzalandı. Müqavilənin IV maddəsinə əsasən, Azərbaycan hökumətinin ictimai asayişin təmin edilməsi üçün Osmanlıdan hərbi yardım istəmək hüququ var idi"* [4, s.30]. Müəllif bununla qeyd edir ki, Batum müqaviləsinin imzalanması ilə iki dövlət arasında olan münasibətlər yeni mərhələyə qədəm qoydu və hüquqi çərçivəyə salındı.

N.Erdaş da N.Yüceer kimi Bakının əhəmiyyətindən, xüsusən də Bakı neftinin Sovet Rusiyası üçün həyati vacib rolu haqqında yazaraq qeyd edir: *"Bakı əvvəlcə Rusiya, sonra isə Sovet hökuməti üçün vacib əhəmiyyətli bir şəhər idi. Bakı nefti olmasaydı, onsuz da dağılmış olan sovet iqtisadiyyatının ayaqda qalması qeyri-mümkün olardı"* [4, s. 35]. N. Erdaşın qənaətinə görə, sovet iqtisadiyyatı məhz Bakı neftindən asılıdır. Bu səbəbdən Rusiya Bakını heç bir ölkəyə güzəştə getmək istəmirdi.

N.Erdaş ikinci fəsildə Mudros barışığından bəhs etmiş və barışıqdan sonra Qafqazda olan vəziyyət haqqında ətraflı məlumat vermişdir. Müəllif barışığın Azərbaycan üçün nəticələri haqqında yazır: *"Sülh müqaviləsinin on beşinci maddəsinə əsasən, Bakının ingilislər tərəfindən işğalı təsdiqləndi. Lakin Bakının ingilislərə verilməsi ilə bağlı Osmanlı hökuməti ilə ingilislər arasında heç bir razılaşma əldə olunmamışdı. Lakin Bakının boşaldılması və ingilislərin daxil olmasına qarşı çıxmaması ilə bağlı Azərbaycandakı türk qüvvələrinin komandanlığına lazımi əmrlər göndərildi"* [4, s. 51]. Tədqiqatçı bununla Osmanlı dövlətinin müharibədə məğlub olması ilə türklərin Azərbaycandan çıxmaq məcburiyyətində olduğunu göstərir.

Beləliklə, Birinci Dünya Müharibəsində (1914-1918) məğlub olan Türkiyə Mudros barışığına (1918) əsasən öz hərbi qüvvələrini Cənubi Qafqazdan, o cümlədən Bakıdan çıxarmalı oldu [1, s.32]. Təbii ki, bu da öz növbəsində Qafqazda baş verən hərbi-siyasi proseslərə təsir etdi.

Batum konfransı (11 may – 4 iyun 1918) haqqında geniş məlumat verən müəllif bu məqamda Mart soyqırımına da toxunaraq hadisəni belə təsvir edir: *"Tarixdə "Mart hadisələri" kimi tanınan üç günlük qırğınlar 20 min azərbaycanlının, o cümlədən qocaların, qadınların və uşaqların ölümü ilə nəticələndi. Bu qırğından sonra bolşeviklər ən yaxın müttəfiqlərinin ermənilər olduğuna, müsəlmanlar isə onları bu vəziyyətdən yalnız Osmanlı Türkiyəsinin xilas edə biləcəyinə inanırdılar"* [4, s.29]. Bununla müəllif bildirmək istəyir ki, Osmanlı ordusu məhz soydaşları olan Azərbaycan türklərini xilas etmək məqsədi ilə Azərbaycana gəlmişdi.

Üçüncü fəsildə isə N.Erdaş Türkiyə Böyük Millət Məclisinin Şərq siyasəti və erməni məsələsi, Gümrü, Moskva və Qars müqavilələrinin imzalanması məsələlərinə toxunmuşdur. Müəllif ermənilərin hərəkətləri ilə bağlı yazır ki, Brest-Litovsk müqaviləsi ilə müstəqillik əldə edən Ermənistan hökuməti Mudros barışığından sonra Anadoluda və Ermənistanda türklərə qarşı düşmən mövqe tutdu. Xüsusilə I Dünya Müharibəsi illərində Türkiyədən qaçan ermənilərin qurduqları dəstələr türk xalqına zülm və işgəncələr verməyə başladılar [4, s.115].

N.Erdaş qeyd edir ki, Gümrü müqaviləsi ilə Osmanlı İmperatorluğu tərəfindən

1918-ci ildə imzalanan Mudros barışıq müqaviləsində nəzərdə tutulan sərhədlər ilk dəfə keçilmiş, 1920-ci il Sevr müqaviləsinin də etibarsızlığı faktiki olaraq sübut edilmişdi. Beləliklə, erməni məsələsi Türkiyənin istədiyi şəkildə həll olundu [4, s.120].

## 2. Sebahattin Şimşir və Ali Haydar Bayatın cümhuriyyətçilərlə bağlı araşdırması

Türkiyə tarixçisi, Azərbaycan siyasi mühacirət tarixinin araşdırıcısı, tərcüməçi, tarix elmləri doktoru, professor Sebahattin Şimşirin dəyərli əsərlərindən biri də "Mehmet Emin Resulzadenin Türkiyedeki hayatı, faaliyetleri ve düşünceleri" əsəridir. M.Ə.Rəsulzadənin həyatı, siyasi fəaliyyəti və Cümhuriyyətin elan edilməsində, eləcə də onun süqutundan sonra aparılan istiqlal mübarizəsindəki rolu və xidmətini ətraflı şəkildə şərh edən bu əsər giriş və dörd fəsildən ibarətdir.

Birinci və ikinci fəsildə S.Şimşir M.Ə.Rəsulzadənin rus işğalına qədər olan həyat və fəaliyyəti, Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və Azərbaycan tarixinin ən kədərli günlərindən biri olan cümhuriyyətin süqutundan sonra mühacirət dövründəki, xüsusən də Türkiyədəki fəaliyyəti haqqında geniş məlumat vermişdir. S.Şimşir "Açıq söz" qəzetinin nəşr olunması, Müsavat partiyasının qurulması və fəaliyyəti haqqında bəhs edilən birinci fəsildə Müsavat partiyası ideologiyasının formalaşmasında, bu ideologiyanın bir proqram halını alaraq dövlətin yaradılmasında M.Ə.Rəsulzadənin böyük rol oynadığını qeyd etmişdir [5, s.14]. Müəllif M.Ə.Rəsulzadənin demokratik dəyərlərin və türkçülüyün yayılmasındakı rolundan bəhs edərək bildirir ki, türkçülük məsələsində o xüsusən də Ziya Gökalpın "Türk millətindənəm, İslam ümmətindənəm və Qərb mədəniyyətindənəm" şüarından ömrünün sonuna qədər istifadə etmişdir [5, s.70]. Müəllif burada nəzərə çatdırmaq istəyir ki, Azərbaycanda türkçülük məhz Ziya Gökalpın təsiri ilə formalaşmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixi haqqında müəyyən məlumatlar əldə edə biləcəyimiz başqa bir əsər olaraq Ali Haydar Bayat tərəfindən yazılan "Əlibəy Hüseynzadə" kitabını göstərə bilərik. Müəllif yazdığı bu avtobioqrafik əsərində Əli bəy Hüseynzadənin həyatı, şəxsiyyəti, Türkiyədəki fəaliyyəti, türkçülük və türkçülük tarixindəki yeri haqqında, "Həyat" və "Füyuzat" qəzetlərindəki yazıları, əsərləri və məqalələri haqqında geniş məlumat vermişdir. A.H.Bayat qeyd edir ki, Türkiyədə 1911-1918-ci illərdə Ziya Gökalp tərəfindən sistemləşdirilən "Türkləşmək, İslamlaşmaq və Müasirləşmək" prinsiplərini ilk ortaya çıxaran və öz yazılarında müdafiə edən məhz Hüseynzadə Əli bəy olmuşdur [2, s.33]. Müəllif əsərdə eyni zamanda Ə.Hüseynzadənin Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasındakı fəaliyyətindən bəhs etmişdir.

Qeyd edilən dövrdə özündə bu və ya digər dərəcədə Cümhuriyyət haqqında məlumatları əks etdirən növbəti əsər kimi "Birinci Dünya Hərbində Türk Hərbi" silsiləsindən olan "Qafqaz Cəbhəsi II Cild 3-cü Ordu Əməliyyatı" kitabıdır. Bu əsər dörd illik bir dövrü əhatə etdiyi üçün iki kitab halında tərtib edilmişdir. Birinci kitaba müharibənin əvvəlindən 1915-ci ilin sonuna qədər olan əməliyyatlar və döyüşlər (I-V fəsillər) daxildir. 1916-cı ilin əvvəlindən başlayaraq həmin ilin payızında 3-cü Ordunun Kemah-Tirebolu xəttinə çəkilməsinə səbəb olan bir sıra döyüşlərlə, 1918-ci ilin fevral ayının əvvəlindən başlayaraq 1918-ci ilin noyabrında Şimali Qafqazda (Dağıstan) Mahaçqalanın alınması ilə nəticələnən "İrəli əməliyyatını" əhatə edən (VI-IX fəsillər) ikinci kitabdadır. Bu dəyərli əsərin yazılmasında ATAŞE Rəyasət Heyətinin arxivindəki sənədlərdən, bu mövzuda mövcud olan rəsmi və özəl nəşrlərdən istifadə edilmişdir. Əsərin yazılmasına Hakkı Altınbilek tərəfindən başlanmış, Naci Kır tərəfindən isə tamamlanmışdı. Özündə vacib məlumatları ehtiva edən bu geniş tədqiqat işi ATAŞE Rəyasət Heyətinin səlahiyyətli komitələri tərəfindən araşdırılmışdır. Əsərin arxiv sənədlərindən istifadə edilərək

yazılması onun əhəmiyyətini daha da artırır.

Tədqiqat mövzusu ilə bağlı məlumatlar qeyd olunduğu kimi, ikinci kitabda əks olunmuşdur. Əsərin səkkizinci fəslində Bakının azad edilməsinin döyüş planı belə təsvir olunur: *“15-ci Piyada diviziyası cəbhəsində 1918-ci il sentyabrın 13-dən 14-nə keçən gecə yarısından başlayaraq qırx nəfərlik güclü kəşfiyyat qüvvələrinin düşmən mövqelərinə yaxınlaşması ilə tərəflər arasında piyada döyüşü başlandı və düşmənin diqqəti bu cəbhəyə yönəldi. Saat 04:00-da 38-ci piyada alayı ağır artilleriya atəş dəstəyi ilə hücuma başladı”* [3, s.588]. Bakının azad olunması üçün 1918-ci il sentyabrın 15-də səhər saatlarında artilleriya hazırlıq atəşinin ardınca Qafqaz İslam Ordusu komandanlığının növbəti hücum əmri 1918-ci il sentyabrın 14-də saat 20:30-da alındı. Bu əmrə əsasən, 5-ci Qafqaz diviziyasının sol qanadı erməni kəndi vasitəsilə hücuma keçərək Bakı şəhərinin qərb hissəsini tutacaq. Aylarla davam edən qanlı və çətin döyüşlərin son hissəsi olan 36 saatlıq şiddətli döyüşdən sonra Bakı azad olundu. Hacıqabul Cənub Qrupunun komandanı polkovnik Cəmil Cahit bəy, Bakı şəhərinin komandiri təyin edildi [3, s.591].

Sonuncu Bakı hücumunda iştirak edən 5-ci Qafqaz və 15-ci Piyadaların ümumi itkiləri 800-1000-ə yaxın şəhid və yaralıdır. Müsəlmanlar 1918-ci il martın 18-də ermənilərin müsəlmanlara qarşı törətdikləri qırğına qarşı, Bakının işğalı günü müsəlmanlar ermənilərə qarşı üsyana qalxsalar da, ordunun sərt tədbirləri nəticəsində heç nə baş vermədi. Əvvəldən bu bölgədə fəaliyyət göstərən 5-ci Qafqaz Diviziyasının ümumi itkisi 30 zabit, 100 kiçik zabit və sıravi idi [3, s.592]. Müəllif bununla Osmanlı ordusunun Bakıda olmasının müsəlmanların dinc yaşamaları üçün nə dərəcədə vacib olduğunu qeyd edir.

**Nəticə**

Məqalədə haqqında yazılan əsərlərin hər birində mövzu ilə əlaqədar lazımi faktlar və məlumatlar görürük. Nasır Yüceer və Nilgün Erdaşın yazdığı əsərlərdə müəyyən oxşarlıqları aydın şəkildə görə bilərik. Belə ki, hər iki müəllif əsərlərində daha çox Osmanlı ordusunun Azərbaycana gəlişi və bu gəlişinin səbəblərindən, Bakının azad olunması zamanı həyata keçirilən hərbi əməliyyatlardan, eləcə də azərbaycanlılara qarşı törədilən qırğınlardan bəhs edir. N.Yüceer və N.Erdaşın qənaətincə, türk ordusunun Azərbaycana və Dağıstana gəliş məqsədi sadəcə müsəlman əhalini qırğınlardan xilas etmək və yardım etmək idi.

Sebahattin Şimşir və Ali Haydar Bayatın qələmə aldıqları əsərlər isə digər iki müəllifin yazdıqlarından fərqlənir. S.Şimşir və A.Bayatın əsərləri, adlarından da göründüyü kimi, bioqrafik əsərlərdir.

Bu əsərlərin hər biri mövzu ilə bağlı geniş və obyektiv məlumatlar əldə etmək üçün xüsusi dəyərlidirlər. Türkiyə tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyəti tarixinin daha dərindən öyrənilməsi hər zaman aktual olan məsələlərdəndir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası I c., Bakı: Şərq-Qərb nəşriyyat evi, 2014, 440 s.
2. Bayat A. H. Ali bey Hüseynzade və Türkiyede Yayınladığı Eserleri. İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, 1992, 173 s.
3. Birinci Dünya Harbinde Türk Harbi, Kafkas Harbi, III Ordu Harekatı, II c. (2. Kitap). Ankara: Genelkurmay basımevi, 1993, 803 s.
4. Erdaş N. Milli Mücadele Döneminde Kafkas Cümhuriyyetleri ile İlişkiler (1917 1921). Ankara: Genelkurmay Basımevi, 1994, 153 s.

5. Şimşir S. Mehmet Emin Resulzade'nin Türkiye'deki Hayatı, Faaliyetleri ve Düşünceleri. Ankara: Türk Kültürünü Araşdırma Enstitüsü Yayınları, 1995, 128 s.
6. Yüceer N. Birinci Dünya Savaşında Osmanlı Ordusunun Azerbaycan və Dağıstan Harekatı. Ankara: Genelkurmay Basımevi, 1996, 201 s.

**_Резюме_**

**_Айнур Керимли_**

**_Исследование истории Азербайджанской Демократической Республики в Турецкой историографии 1990-х годов_**

В данной статье рассматриваются исследования различных аспектов истории Азербайджанской Демократической Республики в турецкой историографии в 1990-х годах. С момента своего создания изучение истории Азербайджанской Демократической Республики, являющейся особо исторически значимым событием в истории Азербайджана, является одной из исследовательских тем, находящихся в центре внимания как азербайджанских, так и зарубежных историков, в основном турецких историков. По сравнению с предыдущими годами, исследование истории Азербайджанской Демократической Республики турецкими историками расширилось в 1990-х годах XX века. Одной из основных причин этого, безусловно, можно назвать восстановление отношений между двумя государствами с обретением Азербайджаном независимости в 1991 году. Азербайджанская Демократическая Республика занимает важное место в турецкой историографии, поскольку она была первым тюркским государством, созданным на Кавказе. Эта демократическая республика легла в основу отношений между Турцией и Азербайджаном, способствовала развитию сотрудничества между двумя странами в военной, политической, экономической, культурной и других областях. Основу темы исследования составляет создание Азербайджанской Демократической Республики 28 мая 1918 года, военно-политическая поддержка, оказанная Османским государством правительству Азербайджана на основе Батумского договора (4 июня 1918 года), значение Бакинской нефти, распад АДР, Армянский вопрос, политическая ситуация на Кавказе после того, как Османское государство, потерпевшее поражение в конце Первой мировой войны, было вынуждено подписать Мудросский договор (30 октября 1918 года), и другие важные вопросы. Ценную и интересную информацию об изучении темы исследования можно получить из работ, упомянутых в статье. Написание этих работ показывает, что тема сохранила свою актуальность и в 90-е годы XX века. С непрерывным развитием отношений между двумя дружественными государствами подобные исследовательские работы в будущем еще больше возрастут.

**Ключевые слова:** *Баку, Мудросский договор, Первая мировая война, Османская армия, Дагестан*

**_Summary_**

**_Aynur Karimli_**

**_Research of the History of the Azerbaijan Democratic Republic in 1990s Turkish Historiography_**

This article discusses the research of various aspects of the history of the Azerbaijan Democratic Republic in Turkish historiography in the 1990s. Since its establishment, the study of the history of the Azerbaijan Democratic Republic, which is a particularly historically significant event in the history of Azerbaijan, has been one of the research topics in the focus of attention of Azerbaijani historians as well as foreign historians, mainly Turkish historians. Compared to previous years, the research of the history of the Azerbaijan Democratic Republic by Turkish historians expanded in the 1990s of the 20th century. One of the main reasons for this can be, of course, the restoration of relations between the two states with the regaining of independence of Azerbaijan in 1991. The Azerbaijan Democratic Republic occupies an important place in Turkish historiography as it was the first Turkic state established in the Caucasus. This democratic republic formed the basis of relations between Türkiye and Azerbaijan , contributed to the development of cooperation between the two countries in military, political, economic, cultural and other areas. The basis of the research topic is the establishment of the Azerbaijan Democratic Republic on May 28, 1918, the military-political support provided by the Ottoman state to the government of Azerbaijan based on the Batum Treaty (June 4, 1918), the importance of Baku oil, the collapse of the ADR, the Armenian

issue, the political situation in the Caucasus after the Ottoman state, defeated at the end of the First World War, was forced to sign the Mudros Treaty (October 30, 1918), and other important issues. Valuable and interesting information about the study of the research topic can be obtained from the works mentioned in the article. The writing of these works shows that the topic has retained its relevance in the 90s of the 20th century. With the continuous development of relations between the two friendly states, such research works will increase even more in the future.

**Key words:** *Baku, Treaty of Mudros, World War I, Ottoman army, Dagestan*

Redaksiya heyətinin üzvü T.ü.f.d., dos. Mehdiyev Aqşin Şəfaət oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.